

**Ramil Ağayev**
*Atropatena və Albaniya (Qafqaz) tarixi şöbəsinin müdiri*
*Tarix elmləri doktoru, dosent*

## Atropatena dövləti

Yunan tarixçisi Herodotun yazdığına görə, Cənubi Azərbaycan ərazisi Əhəmənilər (e.ə.550-330) dövründə X satraplığa, yəni Mada (Midiya) satraplığına daxil idi. Digər tərəfdən, bəzi tədqiqatçılara görə, buradakı yarımmüstəqil Asaqarta vilayəti gələcək Kiçik Midiya, yəni Midiya Aturpatakanına uyğun idi.

Antik müəlliflərin verdiyi məlumata görə, Atropat hələ Əhəməni hökmdarı III Artakserksin (e.ə.358-338) dövründə Midiyanın satrapı təyin olunmuş, IV Artakserksin (e.ə.338-336) və III Daranın (e.ə.336-330) dövründə də öz vəzifəsini qoruyub saxlamışdır. Midiyalılar Atropatın rəhbərliyi altında e.ə.331-ci ildə baş vermiş məşhur Qavqamela döyüşündə III Daranın ordusunun tərkibində Makedoniyalı İsgəndərə qarşı vuruşmuşlar. Yunan tarixçisi Arrianın yazdığına görə, həmin döyüşdə "kadusilər, albanlar və sakasenlər də midiyalılarla birləşmişdilər"[1].

Əhəmənilərin tənəzzülü dövründə bir satrap kimi Atropatın hakimiyyətinin kadusilərin və kaspilərin yaşadığı XI, eləcə də Kür-Araz ovalığını əhatə edən XIV satraplığa da yayıldığı güman edilir. Beləliklə, faktiki olaraq, Cənubi Azərbaycanın bütün ərazisi, Şimali Azərbaycan ərazisinin xeyli hissəsi Atropata tabe idi.

Əhəmənilər dövlətinə son qoyan Makedoniyalı İsgəndər onun hüzuruna gəlməyən Atropatı Midiya satrapı vəzifəsindən kənarlaşdırmış və yerinə Oksadatı təyin etmişdi. Mənbələrin verdiyi məlumata görə, Atropat böyük dövlət xadimi, uzaqgörən bir siyasətçi idi. Elə buna görə də o, tezliklə Makedoniyalı İsgəndərlə hərbi mübarizənin faydasız olduğunu başa düşərək makedoniyalılarla danışıqlar aparmaq, onlara yaxınlaşmaq yolunu seçdi. Çox keçmədən Atropat makedoniyalılarla gərgin olan münasibətləri qaydaya sala bildi və e.ə. 328-ci ildə Midiya satrapı vəzifəsinə bərpa edildi. Bu zaman onun hakimiyyəti yalnız Kiçik Midiyaya, yəni Cənubi Azərbaycana və ondan asılı olan bəzi Cənubi Qafqaz vilayətlərinə aid idi.

E.ə.324-cü ildə Böyük Midiyada makedoniyalılara qarşı Bariaksın üsyanını yatırması və İsgəndərin ən yaxın sərkərdələrindən biri olan Perdikki (Perdikka) ilə qohum olması Atropatın nüfuzunu daha da artırdı. Yunan tarixçisi Strabonun qeyd etdiyi kimi, Atropat müdrik siyasəti ilə öz ölkəsinin Makedoniyanın əsarəti altına

---
[1] Алиев К. Г. Писатели античности об Азербайджане. Баку, 2001, с.77.

düşməsinə yol vermədi[2]. E.ə.323-cü ildə Makedoniyalı İsgəndərin ölümündən sonra dövlət regenti olan Perdikki tərəfindən satraplıqların birinci bölüşdürülməsi zamanı Atropat Kiçik Midiya üzərində hakimiyyətini saxladı. Böyük Midiya Pitona verildi. Mənbələrin məlumatlarına görə, Atropatı hakimiyyətdən məhrum etməyə heç bir əsas yox idi, çünki o, özünü yeni üsul-idarəyə sadiq bir satrap kimi aparırdı.

E.ə. 321-ci ildə Perdikkinin ölümündən sonra satraplıqların ikinci bölüşdürülməsi baş verdi. Bu bölgüdən sonra da Atropat öz hakimiyyətini qoruyub saxlaya bildi[3]. Həmin dövrdən başlayaraq Kiçik Midiyanı müstəqil dövlət hesab etmək olar. Yeni dövlətin paytaxtı Qazaka şəhəri idi. Bəzi ehtimallara görə, Qazaka Atropatena hökmdarlarının yay, Vera qalası isə qış iqamətgahı olmuşdur.

Beləliklə, e.ə. IV əsrin 20-ci illərinin sonlarından etibarən Atropat rəsmi surətdə Kiçik Midiyada yeni dövlətin – sonralar isə özünün ilk hökmdarının adı ilə antik müəlliflər tərəfindən Atropatena adlanan dövlətinin əsasını qoydu. Bu dövlət faktiki olaraq makedoniyalılardan müstəqilliyini əldə etmiş ilk dövlətlərdən biri oldu. Manna dövlətinin süqutundan təxminən 270 il sonra tarixi Azərbaycan torpaqlarında yeni müstəqil dövlət təşəkkül tapdı. Dövlətin özəyini Mannanın tarixi vilayətlərindən biri olan Zikertu torpaqları təşkil edirdi.

Müstəqil Atropatena dövlətinin meydana gəlməsi Atropatın şəxsi keyfiyyətləri ilə yanaşı, bir sıra ilkin şərtlərlə bağlı idi. İlk növbədə Əhəmənilər dövlətinin süqutu, sonra isə Makedoniya imperiyasının dağılması ilə xarakterizə olunan tarixi şərait, xüsusilə, qeyd edilməlidir. Digər tərəfdən bu, ölkə ərazisindəki ayrı-ayrı bölgələrin iqtisadi, sosial, mədəni səviyyəsi və onların arasında üzvi-tarixi əlaqələrin olması ilə izah edilə bilər. Atropat hələ də nəsli-tayfa quruluşunun qüvvətli qalıqlarından qurtulmayan, lakin yüksək döyüş ruhu ilə fərqlənən yerli tayfaları da öz tərəfinə çəkə bilmişdi.

Yeni dövlətin hüdudları haqqında müxtəlif fikirlər mövcuddur. Atropat Araz çayından cənubdakı torpaqlarla yanaşı bir hökmdar kimi indiki Şimali Azərbaycan ərazisində yaşayan bəzi tayfalar üzərində də hakimiyyətə malik idi[4]. Bir sıra hallarda Atropatena ilə Albaniya arasında sərhədin Kür çayı olduğunu söyləmək mümkündür[5].

Yunan tarixçisi Polibi e.ə.III əsrin son rübündəki hadisələrdən bəhs edərkən yazır ki, Atropatenanın bəzi hissələri Fasisdən (Rioni çayı) yuxarıdakı yerlərdə Pontun (Qara dənizin) üzərində yüksəlir, digər tərəfdən o, Hirkan (Xəzər) dənizinə qədər çatır. O, qeyd edir ki, Midiya qərb tərəfdən Atropatena ilə həmsərhəddir[6]. Atropatenanın sərhədləri haqqında oxşar məlumata Strabonun əsərində də rast

---

[2] Алиев К. Г. Античные источники по истории Азербайджана. Баку, 198, с.26.
[3] Alferd fon Qutşmidt. Tarix-e İran, məmalik-e həmcivar-e an əz zaman-e İskəndər ta enqraz-e Əşkaniyan., tərcüme-ye Keykavus Cahandari. Tehran, 1356, s. 51.
[4] Дьяконов И.М. История Мидии. Москва-Ленинград, 1956, с.451-452.
[5] Ямпольский З.И. К вопросу об одноименности древнейшего населения Атропатены и Албании // Труды ИИФ АН Аз. ССР, 1954, т. IV, с.100-108.
[6] Алиев К. Г. Античные источники по истории Азербайджана, с.15-16.

gəlinir[7]. Strabon Atropatenanın hüdudları və Araz çayından bəhs edərkən Azər yaşayış məntəqəsinin də adını çəkir[8].

Polibi yazır ki, həmin "padşahlıq" Əhəmənilərin zamanından mövcuddur. Burada söhbət Əhəmənilərin zəiflədiyi dövrdə satrapların özlərini "padşah" kimi aparmasına işarə edilir. Ona görə də Polibi və onun istifadə etdiyi müəlliflər həmin Kiçik Midiyanı hələ tam müstəqil dövlətə çevrilmədən öncə "padşahlıq" adlandırırdılar və bu zaman bütöv Midiya satraplığını nəzərdə tuturdular. Elə bu faktdan və buna bənzər digər faktlardan istifadə edən bəzi tədqiqatçılar Atropatena dövlətinin e.ə.IV əsrin 20-ci illərində deyil, daha əvvəl yarandığını ehtimal edirlər. Bu iddialar elmi cəhətdən öznü doğrultmur, tutarlı faktlara əsaslanmır və səhih deyildir. Digər tərəfdən, bütün başlıca ilkin yazılı qaynaqlar e.ə.VI – IV əsrlərdə baş vermiş hadisələrdən bəhs edərkən bölgənin "müstəqil hökmdarlar" tərəfindən deyil, "təyin olunmuş satraplar" vasitəsilə idarə edildiyini göstərirlər.

İlkin yazılı qaynaqlar Atropatın müstəqil dövlətin hökmdarı kimi sonrakı fəaliyyəti, xarici siyasəti, vəfatı və onun ilk varisi haqqında susurlar. Bununla belə, Makedoniyalı İsgəndərin ölümündən sonra onun sərkərdələrinin hakimiyyət uğrunda mübarizə apardığı illərdə Atropatın öz dövlətinin müstəqilliyini qoruyub saxlaya bildiyini söyləmək mümkündür.

Qeyd etmək lazımdır ki, Atropatena dövləti yarandıqdan sonra da bəzi antik müəlliflər Kiçik Midiya və Atropatena adlarını bir-birinin sinonimi kimi işlətməkdə davam edirdilər.

"Azərbaycan" adının məhz həmin "Atropatena" termini ilə bağlı olması haqqında fikirlər mövcuddur. Bu mövqedən çıxış edən müəlliflərin istinad etdiyi ilkin yazılı qaynaqlardan biri antik müəlliflərdən Strabonun (e.ə.63-b.e.23) "Coğrafiya" əsəridir. Strabon yazır: "Midiya iki hissəyə bölünür. Baş şəhəri Ekbatan olan bir hissəsini Böyük Midiya adlandırırlar... İkinci hissə - Atropat Midiyasıdır. O, öz adını bu ölkənin Böyük Midiyanın tərkib hissəsi kimi makedoniyalıların hakimiyyəti altında qalmasına imkan verməmiş sərkərdə Atropatdan almışdır. Həqiqətən də çar elan edilmiş Atropat öz şəxsi qərarı ilə bu ölkəni müstəqil etdi, hələ indi də, varislik onun ailəsində saxlanılır. Atopatena çox güclü ölkədir, çünki o, döyüşə 10 min süvari və 40 min piyada çıxara bilir".[9]

Vaxtı ilə Manna kimi böyük dövlətinin yerləşdiyi ərazinin coğrafi adının (ölkə adını) dəyişdirilərək onu idarə edən bir sərkərdənin adı ilə əvəz edilməsi fikri inandırıcı deyildir. Məlum olur ki, antik müəlliflər ölkəni Atropatena adlandırarkən heç də onun coğrafi mənsubiyyətini nəzərdə tutmamışlar. Onlar, sadəcə olaraq, Atropatın idarə etdiyi ölkədən, yəni "Atropatın ölkəsindən" bəhs etmişlər və bu daha

---

[7] Yenə orada, c.26.
[8] Yenə orada, c.30.
[9] Алиев К.Г. Античные источники по истории Азербайджана, с.26..

çox siyasi xarakter daşımışdır. Beləliklə, aydın olur ki, "Azərbaycan" adı "Atropatena" adından törəmə deyil, əvəzində "Atropatena" özü orijinal adın yunan dilinə uyğunlaşdırılmış və beləcə, təhrif olunmuş variantıdır.

Atropatdan sonrakı hökmdarların tam xronolji sıralaması müəyyən edilməsə də dövləti atropatilərin idarə etdiyini söyləmək mümkündür. Atropatilər ilkin yazılı qaynaqlarda hökmdar sülaləsi kimi təqdim olunur. Atropatena hökmdarları özlərinin siyasi və iqtisadi mövqelərini gücləndirmək üçün fəal xarici siyasət yürüdür, nikah diplomatiyasından və Arazın hər iki tərəfində yaşayan nüfuzlu tayfalarla müttəfiqlik əlaqələrindən bəhrələnirdilər.

Atropatena dövləti Selevkilər imperiyası (e.ə.312-63) ilə mübarizədə öz müstəqilliyini qoruyub saxlamağa çalışırdı. E.ə. III əsrdə vaxtı ilə Makedoniya imperiyasına daxil olan əraziləri yenidən bölüşdürmək uğrunda mübarizədə diadoxları (qanuni varisləri) epiqonlar (törəmələr) əvəz etmişdi. Məhz həmin dövrdə cərəyan edən hadisələr zəminində Atropatenadan da bəhs edilir. E.ə.III əsrin 20-ci illərində "hökmdarlar içərisində ən qüdrətlisi və ən ağıllısı" olan Atropatena hökmdarı Artabazan, nəinki Arazdan cənubda, habelə şimalda olan geniş əraziyə sahib idi. Polibiyə görə, Artabazan atropatilər adlandırılan və onlarla həmsərhəd olan xalqlar üzərində hökmdar idi. Həmin dövrdə bu dövlət indiki Ermənistan ərazisini və Gürcüstanın (İberiyanın) bir hissəsini də əhatə edirdi. Tarixin müəyyən mərhələlərində (məsələn, e.ə. III-I əsrlərdə) Naxçıvanın Atropatenanın tərkibində olduğu əsaslandırılmışdır[10].

Selevkilər dövlətində hakimiyyətə gələn III Antiox (e.ə.223-187) imperiyanın keçmiş qüdrətini bərpa etmək istəyirdi və bu məqsədlə Şərqə böyük yürüşə başladı. Selevki hökmdarının Artabazanla müharibəsi sülhlə başa çatdı. Atropatena Selevkilərin ali hakimiyyətini tanımalı oldu, lakin bu çox çəkmədi. E.ə.190-cı ildə baş vermiş Maqneziya döyüşündə Selevkilər Roma tərəfindən məğlub edildikdən sonra Atropatena öz müstəqilliyini yenidən bərpa etdi.

Belə bir fikir mövcuddur ki, e.ə.II əsrin ortalarında Aşağı Midiya Parfiya tərəfindən ələ keçirildikdən sonra Atropatena da işğal edilmiş, hətta e.ə.150-ci ildə müstəqilliyinə son qoyulmuşdur. Lakin bu zaman Atropatena Parfiyadan tam şəkildə asılı deyildi və bu faktı antik müəlliflər də təsdiq edirlər. Qay Plini Sekund yazır ki, bu zaman Fars körfəzi ilə Hirkan dənizi arasında yerləşən fars çarlığı indi Parfiyaya məxsusdur. Ondan ön hissədə isə Kaspi dənizinədək Atropatena yerləşir[11].

E.ə.II əsrin II yarısı – I əsrin əvvəllərində Ön Asiya uğrunda mübarizə aparan əsas dövlətlər Roma ilə Parfiya idi. Atropatena həmin dövlətlər arasında gedən müharibələrdə Parfiyanın müttəfiqi kimi fəal şəkildə iştirak edirdi.

---

[10] Hacıyev İ. Naxçıvanın Atropatena dövlətində yeri və roluna dair / Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2018, № 1, s.5-6.

[11] Алиев К. Г. Писатели античности об Азербайджане, с.60-61.

Atropatenanın e.ə. I əsrin I yarısına aid tarixi haqqında məlumat olduqca azdır. Yalnız həmin əsrin 60-cı illərində baş verən hadisələrlə bağlı bəzi atropatilərin adları çəkilir. Antik müəlliflərə görə, e.ə. 60-cı illərin əvvəllərində Atropatena hökmdarı Mitridat idi. Ondan sonra mənbələrdə Atropatenanı idarə edən Dara adlı şəxsin adına epizodik şəkildə rast gəlinir[12]. Bu zaman Ön Asiya uğrunda Roma-Parfiya mübarizəsi davam edirdi. İki dövlət arasında ilk həlledici döyüş Parfiya hökmdarı II Orodun dövründə, e.ə.53-cü ildə Şimali Mesopotamiyada, Karra şəhəri yaxınlığında baş verdi. Parfiya qoşunları Surenanın rəhbərliyi altında Krassın başçılıq etdiyi Roma ordusunu ağır məğlubiyyətə uğratdı. Həmin dövrdəki Atropatena hökmdarının adı məlum deyil. Yeganə məlum olan fakt Karra döyüşü ilə Hindar döyüşü arasında I Ariobarzanın adının çəkilməsidir. E.ə.38-ci ildə Hindar yaxınlığında baş verən döyüş isə Antoninin sərkərdəsi Pibli Ventilinin qələbəsi ilə başa çatdı. Plutarxın verdiyi məlumata görə, e.ə.36-cı ildə Parfiya hökmdarı IV Fraatın və Atropatena hökmdarı Artabazdın (I Ariobarzanın oğlu) hakimiyyəti dövründə Mark Antoninin tarixdə "Parfiya ekspediyası" adlanan yürüşü onun üçün fəlakətlə başa çatdı. Roma qoşunları Fraaspa ətrafında 35 min nəfərə yaxın itki verdi. Atropatena hökmdarı Artabazd böyük qələbəni təntənə ilə qeyd etdi. Bu qələbə onun nüfuzun artırdı.

Mark Antoni üzərində qələbədən çox keçməmiş Atropatena ilə Parfiya arasında ixtilaflar başladı. Parfiya Atropatenanı özünə tabe etmək istəyirdi. Bu isə Atropatenanın Romaya meyl etməsinə gətirib çıxardı və Atabazd e.ə.35-ci ildə Antoniyə sülh və dostluq təklif etdi. E.ə. 34-cü ildə isə o, Fraaspa ətrafında ələ keçirilmiş Roma bayraqlarını Antoniyə qaytardı və qızı İotapanı Antoninin varisi Aleksandra verəcəyini bildirdi. Beləliklə, e.ə. 30-cu illərin ortalarında "son Atropatilərin ən görkəmlisi olan Artabazdın" dövründə Atropatenanın siyasi meyli əhəmiyyətli dərəcə dəyişdi və Romaya yönəldi. Roma imperatoru Oktavian Avqust Atropatenaya münasibətdə daha liberal siyasət yürüdür, Artabazd və onun varislərinə yardım edirdi.

E.ə. 20-ci illərdə Atropatenada Artabazdın oğlu II Ariobarzan hakimiyyətə gəldi. O, on il Romada yaşamışdı. Tatsit onu "mənəvi keyfiyyətləri ilə fərqlənən midiyalı" adlandırırdı[13]. Onun eranın ikinci ilinədək hakimiyyətdə olması güman edilir[14]. Qeyd etmək lazımdır ki, antik müəlliflərin II Ariobarzanın oğlu II Artabazdın və onun varislərinin hakimiyyəti haqqında məlumatı qeyri-müəyyən və qarmaqarışıqdır. Həmin dövrə aid sikkələrdən birinin üzərində Oktavian Avqustun təsviri və "böyük hökmdar Artabazd" sözlərinə rast gəlinir. Bəzi mənbələrə görə, Atropatenanın son müstəqil hökmdarı II Ariobarzanın oğlu Ariovast olmuşdur.

---

[12] Alferd fon Qutşmidt. Tarix-e İran, məmalik-e həmcivar-e an əz zaman-e İskəndər ta enqraz-e Əşkaniyan., s.154.
[13] Алиев К.Г. Античные источники по истории Азербайджана, с.39.
[14] Alferd fon Qutşmidt. Tarix-e İran, məmalik-e həmcivar-e an əz zaman-e İskəndər ta enqraz-e Əşkaniyan., s.159.

Eranın 20-ci illərinə doğru (bəzi ehtimallara görə, eranın birinci onilliyində) Atroatenada atropatilər sülaləsinə son qoyuldu. Atropatilər haqqında son məlumat ikidilli (yunan-latın) kitabədə mövcuddur. Belə ki, sülalənin son nümayəndəsi kimi Qay Yuli Artabazın (I Artabazdın nəvəsi və ya nəticəsi) adı Roma tribalarından birində qeyd edilmişdir[15]. Göründüyü kimi Atropatilərin son dövrü haqqında məlumatlar qeyri-müəyyəndir.

Eranın I rübündə  Atropatena tarixində Romaya meyillik dövrü başa çatdı, Atropatena Parfiyanın nüfuz dairəsinə daxil edildi və hakimiyyət Parfiya Arşakilərinin kiçik qoluna keçdi[16]. Bununla belə, Parfiya Arşakiləri dövründə Atropatena daxili müstəqilliyə malik idi. Maraqlı cəhət budur ki, Atropatenanı idarə edən Arşakilərin bir neçə nümayəndəsi (II Artaban, II Vənən, Pakor) sonralar Parfiya hökmdarı seçilmişdir. II Artabanın hakimiyyəti Atropatena tarixində mühüm dövr sayılır. Bəzən yanlış olaraq III Artaban kimi təqdim edilən II Artabanın (11-38) ata xətti ilə Atropatilərdən olması haqqında fikirlər də mövcuddur[17].

Eranın 70-ci illərində alanların Albaniya və Atropatenaya yürüşləri dövründə Atropatena Parfiya hökmdarı I Vologezin qardaşı Pakor tərəfindən idarə olunurdu. Bəzi ehtimallara görə, eranın 213-223-cü illərində Parfiya hökmdarları arasındakı hakimiyyət uğrunda müharibələr dövründə Atropatena yenidən öz müstəqilliyini bərpa etmişdi.

224-cü ildə Sasanilər tərəfindən Parfiya dövlətinə son qoyuldu. Tarixşünaslıqda hakim olan fikrə görə, Sasanilər 227-ci ildə Atropatenanı da öz dövlətlərinin tərkibinə daxil etmişdir. Bununla belə, bəzi ehtimallara görə, bu zaman Azərbaycanda olan Arşaki hakimi Artabaz (O, sonuncu Parfiya hökmdarı V Orduvanın oğlu və varisi sayılırdı) Sasanilərə tabe olmadı və öz hakimiyyətini ən azı 230-cu ilə kimi qoruyub saxlaya bildi. Bunu onun adından kəsilmiş gümüş pullar da sübut edir. Bəzi məlumatlara görə, Atropatena öz müstəqilliyini 241-cü ilə qədər qoruyub saxlaya bilmiş, yalnız I Şapurun hakimiyyəti dövründə Sasanilər dövlətinin tərkibinə daxil edilmişdir[18].

Atropatena öz müstəqilliyini itirməsinə baxmayaraq Sasanilər dövlətinin ideoloji və dini mərkəzi kimi öz mövqeyini uzun müddət qoruyub saxlamaqda davam etmişdir[19]. Cənubi Azərbaycan üç əsrdən artıq bir dövrdə Sasanilər dövlətinin tərkibində qaldı. Sasani dövrü mənbələrində, o cümlədən I Şapurun əmri ilə 262-ci

[15] Rəhim Rəisniya Azərbaycan dər seyr-e tarix-e İran, s.376..
[16] Fazili A. Atropatena e.ə. IV-e. VII əsri. Bakı, 1992,  s.144
[17] Сафарова И. Х.  По поводу происхождения Парфянского царя Артабана //Azərbaycan tarixşünaslığı. Elmi əsərlər, cild 84, №1, 2023, s.101.
[18] Rəhim Rəisniya Azərbaycan dər seyr-e tarix-e İran, s.446..
[19] Fazili A. Atropatena e.ə. IV-e. VII əsri, Bakı, 1992, s.183.

ildə həkk olunmuş üçdilli Nəqşi – Rüstəm yazılarında ölkə Atropatena deyil, Adurbayğan və yaxud Adərbayğan şəklində təqdim olunurdu[20].

Cənubi Azərbaycan ərazisində müstəqil dövlətin yaradılması qədim ənənələrə malik olan ölkədə təsərrüfat həyatının dirçəlməsinə, ticarət və sənətin canlanmasına şərait yaratdı. İlkin yazılı qaynaqlardakı bəzi məlumatlar Atropatenanın təsərrüfat həyatı haqqında müəyyən fikir söyləməyə imkan verir. Antik müəlliflərin əsərlərindəki materiallar Atropatena ərazisində kənd təsərrüfatının, sənətkarlığın və ticarətin müəyyən inkişaf səviyyəsinə malik olduğunu göstərir. Atropatenada kənd təsərrüfatının əkinçilik və maldarlıq kimi sahələri inkişaf etmişdi. İlkin yazılı qaynaqlarda daha çox Urmiyaətrafı ərazilərin təsərrüfat həyatı haqqında məlumat verilir. İlkin yazılı qaynaqlarda bu gölün digər adlarına (Mantian, Kapavta, Çiçi) da rast gəlinir.

Mənbələrin məlumatları məbədlərə məxsus geniş  və məhsuldar torpaq sahələrinin olduğunu söyləməyə imkan verir. Antik müəlliflər öz əsərlərində Zərdüşt kahinlərinə – maqlara məxsus məhsuldar torpaqlardan bəhs edirlər.

İlkin yazılı qaynaqlar ölkə ərazisində sənət və ticarət mərkəzləri olan şəhərlərin varlığından xəbər verirlər. Atropatena şəhərlərinin sosial-iqtisadi vəziyyəti həm tarixçilər, həm də arxeoloqlar tərəfindən istənilən səviyyədə araşdırılmamışdır. Elə buna görə də şəhər həyatı ilə bağlı bir sıra məsələlər, hələlik ətraflı şəkildə tədqiq olunmamışdır və bu sahədə xüsusi elmi araşdırmalara kəskin ehtiyac duyulur. Bu ilk növbədə şəhərlərin inzibati-idarə sistemi və əhalinin təsərrüfat həyatı, sosial tərkibi ilə bağlı olan məsələlərdir.

Atropatena şəhərləri, əsasən, tipik atəşpərəst şəhərləri idi və bu baxımdan vaxtı ilə Əhəmənilərdən asılı olmuş  digər ərazilərdəki şəhərlərlə bir sıra oxşar cəhətlərə malik idi. Digər tərəfdən burada ellin mədəniyyətinin təzahürləri də özünü büruzə verirdi. Bununla belə, Atropatena şəhərlərinin özünəməxsus bəzi fərdi xüsusiyyətləri də var idi. Atropatena dövründəki şəhərlər haqqında mənbələrin verdiyi məlumatları ümumiləşdirərək onları müasir anlamda sosial-iqtisadi baxımdan iki kateqoriyaya bölmək olar: 1. Sosial təbəqələşmənin zəif olduğu aqrar tipli şəhərlər; Bu qəbildən olan şəhərlər əkinçilik, maldarlıq və sənətkarlığı üzvi şəkildə qovuşduğu yaşayış məskənləri idi. 2. Sosial təbəqələşmənin mövcud olduğu, sənətkarlıq və ticarət mərkəzi olan şəhərlər. Lakin bu fərqlərə baxmayaraq, sosial baxımdan bütün şəhərlərin əsas simasını yenə də sənətkarlıq müəyyən edirdi.

Beləliklə, Atropatenada şəhər əhalisinin əksəriyyəti sənətkarlardan və qismən də ticarətlə məşğul olan əhali kateqoriyasında ibarət idi. Onların arasında sənətkarlar say etibarı ilə üstünlük təşkil edirdilər. Arxeoloji tədqiqatlar sübut edir ki, eranın əvvəllərində Atropatena şəhərlərində sənətin müxtəlif sahələri mövcud olmuşdur.

[20] Аликберов А. К., Мудрак О. А. Арран и сопредельные страны в парфянском тексте трехъязычной надписи III в. на скале Ка‘ба-йи Зардушт (ŠKZ) / Вопросы ономастики, 2020. Т.17 № 1, с.194-195.

Həm yazılı qaynaqlar, həm də arxeoloji qazıntılar daha çox dulus məmulatları haqqında xəbər verirlər. Yaşayış məskənlərindən və qəbir abidələrindən əldə olunmuş zəngin və rəngarəng saxsı materialı Atropatenada dulusçuluq sənətinin yüksək səviyyədə olduğunu göstərir. Əldə olunan dulus məmulatları həm forma müxtəlifliyi, həm də yüksək keyfiyyəti ilə seçilir. Atropatena keramikasının təkamülündə iki mərhələ ayırmaq olar: erkən (e.ə.III-II əsrlər) və son (e.ə.I əsr-eramızın II əsri) mərhələlər.[21] Atropatena özünəməxsus iqtisadi bazaya malik idi və sənətkarlar üçün lazım olan xammalın kənardan gətirilməsinə ehtiyac duyulmurdu.[22]

Aşkar edilən tikililərin ölçüləri, eləcə də qəbir abidələri əhalinin sosial tərkibi haqqında da az-çox təsəvvür yaratmağa imkan verir.

Atropatena ərazisindən aşkar edilmiş küp qəbirlərdən bəzək əşyalarının (boyunbağı, qolbağı, muncuq, üzük və s.) və dulus məmulatlarının (gil qabların) tapılması da sənətkarlığın müxtəlif sahələrinin mövcudluğunu təsdiq edir.

Son dövrlərədək Atropatena ərazisindən aşkar edilmiş pul dəfinələri azsaylı idi. Lakin müstəqillik dönəmində Arazboyu ərazilərdə, eləcə də Naxçıvanda aparılmış arxeoloji qazıntılar Atropatenanın inkişaf etmiş pul dövriyyəsinə malik olduğunu göstərir. Əldə olunan sikkə kütləsi Atropatenanın ticarət əlaqələri və pul dövriyyəsinin səviyyəsi haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. Atropatenadan ellinizm və Parfiya dövrü sikkələri aşkar edilmişdir. Ellinizm dövrü sikkələrinə Urmiya yaxınlığındakı qəbirlərdən birində aşkar olunmuş e.ə.III əsrə aid draxmanı misal göstərmək olar.

Atropatenada Makedoniyalı İsgəndərin adına kəsilmiş pullardan da aşkar edilmişdir. Belə ki, Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş sikkələr-draxma və tetradraxmalar aşkara çıxarılmışdır. Arxeoloji qazıntılar zamanı Oğlanqalanın ikinci dövrünə aid küp qəbirdən dörd gümüş sikkə tapılmışdır. Sikkələrin üz tərəfində Roma imperatoru Oktavian Avqustun təsviri vardır. “Sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Parfiya hökmdarı I Qotarza aid mis sikkə də Parfiya ilə olan əlaqələri əks etdirir.

Atropatenada Parfiya draxmaları daha geniş yayıldığını söyləmək mümkündür. Bunu Əhər və Şirvan şəhərlərindən aşkar olunmuş iki dəfinə də sübut edir. Həmin draxmalar Parfiya hökmdarı II Oroddan (e.ə. təxminən 57-37) başlayaraq IV Vologezədək (147-191) olan dövrü əhatə edir. Təzəkənddə aparılan arxeoloji qazıntılar zamanı Oktavian Avqustun adından kəsilmiş sikkələrə (denarilər) də rast gəlinmişdir.[23]

[21] Azərbaycan tarixi. Yeddi cilddə. I cild, s.336.
[22] Дьяконов И.М. История Мидии, с.451.
[23] Алиева Ф.К. Культура Античного Азербайджана - Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э. - III в.н.э.). Баку, 2007, с.23.

Strabon Atropatenanın ticarət əlaqələri və bu məqsədlə dəvələrdən istifadə olunması haqqında xəbər verir. Xəzər dənizi boyunca şimala gedən və Kaspianadan Atropatenaya doğru uzanan ticarət yolları vardı. Atropatenada tranzit ticarət üçün əsas yol Qazakadan Ekbatana gedən yol idi. Strabonun yazdığına görə, bu yolla dəvələrə yüklənmiş taylarda Hindistan və Babilə mallar daşınırdı. Atropatena hökmdarları qonşu dövlətlərlə ticarət müqavilələri bağlayırdılar.

Strabon Midiyanın böyük bir hissəsinin münbit torpaqlara malik olduğunu qeyd edir. Bu sözləri Kiçik Midiyaya da şamil etmək olar. Erkən orta əsr ərəb mənbələrinin Cənubi Azərbaycan ərazisinin münbit torpaqlara, çaylara, içməli su hövzələrinə, məhsuldar bağlara, zəngin mədənlərə malik olması haqqında məlumatları da bunu təsdiq edir.

Antik və erkən orta əsr müəlliflərinin əsərlərində Atropatenada mədəni bitkilərin becərilməsi, üzümçülüyün, şərabçılığın, bağçılığın, balıqçılığın, ovçuluğun və arıçılığın inkişaf etməsi haqqında az-çox məlumat verilir. Antik müəlliflər öz əsərlərində ölkə ərazisində un üyüdülməsi, zeytun becərilməsindən də bəhs edirlər.

Atropatenada maldarlığı geniş inkişaf etdiyini söyləmək mümkündür. Atçılıq təsərrüfat həyatında mühüm yer tuturdu. Starbon öz əsərində "Midiya otu" adlanan yoncadan bəhs edir. Polibi qeyd edir ki, Atropatenada "atçılıqda üstün olan bir xalq" yaşayır. Strabon öz əsərində Atropatenada 10 min nəfərlik süvari ordundan bəhs etmişdir. Bu isə öz növbəsində atçılığın yüksək inkişaf səviyyəsindən xəbər verir. Antik müəlliflər, Atropatenada qoyunçuluq və dəvəçiliyin inkişaf etməsi ilə yanaşı, öküz sürüləri və at ilxıları haqqında da məlumat verirlər.

Elianın kaspilərin balıqçılıq məşğul olması haqqında məlumatlarını[24] eyni dərəcədə həm Atropatenaya, həm də Albaniyaya aid etmək olar.

Ölkə faydalı qazıntılarla (dəmir filizi, neft) zəngin idi. Antik müəlliflər duz mədənləri haqqında da məlumat verirlər. Starbonun yazdığına görə Kapavata (Urmiya) bölgəsində duzxanalar vardı. Ammian Marsell Atropatenada neft çıxarılmasından bəhs edir və onu "Midiya yağı" adlandırır. Bu yağdan həm məişətdə, həm də hərbi işdə istifadə olunurdu. Həmin müəllif "Midiya yağı" və müxtəlif qarışıqlardan əldə olunan və "nafta" adlanan məhsuldan da bəhs etmişdir.

Aşkar edilmiş yeni arxeoloji materiallar Atropatenanın yüksək maddi və mənəvi mədəniyyətə malik olduğunu göstərir. Həmin materiallar Atropatenanın yaşayış məskənləri, onların memarlıq üslubları, dəfn adətləri, əhalini dini görüşləri haqqında müəyyən fikir söyləməyə imkan verir.

Başlıca şəhərlər Qazaka, Fraaspa, Fanaspa, və Aqanzana şəhərləri idi. Antik müəlliflərin əsərlərində Vera qala adına da rast gəlinir. Strabona görə, bu qala

[24] Алиев К. Г. Античные источники по истории Азербайджана, с.95.

Arazdan 2400 stadiya (1 stadiya-180-200 m.) məsafədə, Atropatenanın sərhəddində yerləşirdi.[25]

Antik müəlliflər bəzi şəhər və digər yaşayış məskənləri haqqında məlumat versələr də onların dəqiq yerlərini göstərmirlər. Uzun müddət Fraaspanın Urmiya gölündən 160 kilometr cənub-şərqdə yerləşən Təxti-Süleymanla eyniləşdirirdilər. Alman arxeoloqlarının arxeoloji qazıntıları bu fikrin doğru olmadığını göstərdi. Bizans mənbələrinə görə, Qazaka da Təxti-Süleymanla eyniləşdirilirdi. Bu fikir də öz təsdiqini tapmamışdır. Hal-hazırda Fraaspanın müasir Marağa şəhərinin ətrafında, Qazakanın isə Miyandobdan şərqdə olan Leylan kəndi ərazində yerləşməsi haqqında fikirlər ağırlıq qazanmışdır. Aqanzana şəhəri indiki Zəncanla, Fanaspa isə Qəle-Zöhakla eyniləşdirilir.[26] Mil düzündəki e.ə. IV – I əsrlərə aid edilən Təzəkənd yaşayış yeri isə qədim Paytrakanla eyniləşdirilir. Antik dövrün digər abidəsi Xoy yaxınlığında yerləşən Qəle-Qorlu adı ilə tanınan yaşayış məntəqəsidir.[27] Naxçıvan şəhərində, Xaraba Gilanda, Oğlanqalada və bir çox kənd tipli yaşayış yerlərində Atropatena mədəniyyətinə aid abidələr aşkara çıxarılmışdır. Şübhəsiz, gələcəkdə yeni mənbələrin ortaya çıxarılması, arxeoloji qazıntıların həyata keçirilməsi haqqında bəhs olunan şəhərlərin və digər yaşayış məskənlərinin daha dəqiq şəkildə lokallaşdırılmasına yardım edəcəkdir.

Makedoniyalı İsgəndərin yürüşlərindən sonra onun işğal etdiyi ərazilərdə yunan-Makedoniya şəhərləri salınır, yunanlara məxsus məbədlər ucaldılır, Balkan yarımadasında gətirilən əhali yerləşdirilirdi. Bu isə öz növbəsində ellin mədəniyyətinin əhatə dairəsinin daha da genişlənməsinə gətirib çıxarırdı. Digər ərazilər kimi, Atropatena ərazisi də ellin mədəniyyətini təsirinə məruz qalırdı. Burada ellin ayinləri aşılanır və yunan allahlarına xidmət edən məbədlər inşa edilirdi. 1909-cu ildə aşkar edilmiş Avroman perqamentləri də yunan dilinin, yazısının və hüquq normalarının Atropatenaya nüfuz etdiyini bir daha sübut edir[28].

Ilkin mənbə və arxeoloji qazıntı materiallarının azlığı tikinti işlərində istifadə olunan memarlıq üslubları və tikinti materialları haqqında qəti fikir söyləməyə imkan vermir. Yalnız iki abidə Mada-Atropatena ərazisində mövcud olmuş memarlıq prinsiplərinin az-cox dərəcədə ümumi mənzərsini verir; mülki xarakterli yaşayış yeri nümunəsi kimi Qəleye-Zöhhak və məbəd qurğusu olduğu güman edilən Kerefto qaya kompleksi.

İki təpədən və onların arasındakı çökəkdən ibarət olan Qəleye-Zöhhak qədim şəhər yeri iki kilometrlik ümumi uzunluğa malikdir. Yaşayış yeri Əhəmənilərə qədərki dövrdən balayayaraq, İslamın yayılmasınadək tikilmiş müxtəlif təyinatlı

[25] Алиев К.Г. Античные источники по истории Азербайджана, с.27.
[26] Алиев И.Г. Очерк истории Атропатены. с.105-106.
[27] Алиева Ф.К. Культура античного Азербайджана - Мидийской Атропатены и Кавказской Албании., с.24.
[28] Ellis H. Minns. Parchments of the Parthian Period from Avroman in Kurdistan / Jornal of Hellenic Studies, 35, pp. 98-141.

qurğuları özündə ehtiva edir. Tədqiqatçıların ümumi rəyinə görə, çökəkdəki məskən izləri e.ə. II – I minilliklərə, şimaldakı təpədəki şəhər yeri Parfiya dönəminə, cənubdakı təpədəki qala qurğuları isə Sasanilər dövrünə aiddir.

Kereftodakı mağara tipli tikilinin funksional təyinatı haqqında iki fikir mövcuddur. Tədqiqatçıların bir qismi onun Herakla həsr olunmuş dini təyinatlı tikili olduğunu iddia edirlər. Digər tədqiqatçılar isə onun mülki xarakterli olduğunu düşünürlər.

Atropatena əhalisinin dini görüşlərindən danışarkən qeyd etmək lazımdır ki, burada Zərdüştiliklə yanaşı yunan-makedoniyalılar tərəfindən gətirilmiş müxtəlif yunan ayinləri, xüsusilə, Herakla sitayiş də yayılmışdı.

Atropatenanın mənəvi həyatında Zərdüştilik dininin böyük rolu olmuşdur. Maq kahinləri od ayininin xidmətçiləri, zərdüştilik təliminin təbliğatçıları, "Avesta"nın mühafizəçiləri sayılırdılar. Zərdüştiliyin baş məbədlərindən biri Adurquşnasp məbədi Atropatenanın paytaxtı Qazakada yerləşirdi. Bəzi mənbələrə görə, sonralar Sasani şahları tacqoyma mərasimi zamanı Ktesifondan (Mədaindən) buraya ziyarətə gəlirdilər.

Zərdüştilik dualist (iki əsas allahın olduğunu qəbul edən) dindir. Zərdüştiliyə görə, Ahura Mazda (Hörmüzd) xeyir, Anqra Manyu (Əhrimən) şər allahıdır. Zərdüştiliyin müqəddəs kitabı "Avesta"dır. "Avesta"nın 12 min öküz dərisi üzərində yazılmış əsas variantı Makedoniyalı İsgəndərin dövründə Əhəmənilərin Persopoldakı (Suzdakı) sarayı yandırılarkən məhv olmuşdur. Plininin yazdığına görə, "Avesta" iki milyon sətirdən ibarət idi. Onun harada tərtib olunması, Zərdüştün vətəni və danışdığı dil haqqında fikirlər müxtəlifdir. "Avesta"nın bəzi hissələrinin hələ b.e.ə.II – I minilliyin I yarısında tərtib olunduğu güman edilir. Zərdüştün Makedoniyalı İsgəndərdən 258 il əvvəl yaşaması haqqında ehtimal da mövcuddur. Onun Azərbaycan, Mərkəzi Asiya və Əfqanıstanda doğulması haqqında müxtəlif fikirlər vardır.[29] Orta əsr müsəlman tarixçilərinin böyük əksəriyyəti Urmiya bölgəsini Zərdüştün vətəni hesab edirlər. Onun e.ə.X – VI əsrlər arasında yaşaması fikri daha üstündür.

Zərdüştiliyin müqəddəs kitabı "Avesta"nın bizə gəlib çatmış nüsxəsi Sasanilər dövrünə aiddir və "Zənd-Avesta" adı ilə tanınmışdır. Belə hesab olunur ki, "Avesta"ya münasibətdə "Zənd-Avesta" terminindən istifadə olunması yanlışdır. "Avesta"nın həmin mətni pəhləvi dilində tərcümə və şərhlərlə də təchiz olunmuşdur. "Avesta" sonralar da tərcümə və redaktələrə məruz qalmışdır. Sasanilər dövründə bərpa edilmiş mətn 21 naskdan (kitabdan) ibarətdir. Həmin kitabların adları və qısa məzmunu IX əsrin digər Zərdüştilik əsəri "Denkart"dan məlumdur. "Avesta" qalıqlar uzun müddət Hindistanda yaşamış fransız Anketil Düperron tərəfindən 1771-ci ildə

[29] Авеста. В. С. Соколова. Опыт морфологической транскрипции и перевод / И. А. Смирнова. Подготовка материалов к изданию и редактирование. — СПб.: «НАУКА», 2005 , с.9-14.

nəşr edilmişdir. Zərdüştiliyin azsaylı daşıyıcıları indi də İranda (gəbrlər) və Hindistanda (parslar) yaşamaqdadırlar.

"Avesta"dan yalnız 4 kitab (Yaşt, Yasna, Visprat və Videvdat) yarımçıq şəkildə dövrümüzə qədər gəlib çatmışdır. Yaşt (mədh, pərəstiş) müxtəlif ilahələrə həsr olunmuş 22 mədhdən (nəğmədən) ibarətdir. "Veda"dakı qədim epos və əsatirlərlə "Yaşt"dakı epos və əsatirlər arasında oxşarlıq vardır. Bu bənzərliyə əsasən, "Yaşt" "Avesta"nın dövrümüzə gəlib çatan ən qədim hissəsilərindən hesab olunur.

"Yasna" (dualar) adətlərdən, ayinlərdən, dualardan və qatlardan (himinlərdən) bəhs edir. O, "Avesta"nın ən böyük hissəsi hesab olunur və 72 fəsildən ibarətdir. "Yasna"nın ən mühüm hissəsi (17-ci fəsli) Zərdüştün özü tərəfindən tərtib olunduğu güman edilən "Qatlar"dır. Bəzi kitablarda "Qathalar" və "Qatalar" kimi təqdim olunan "Qatlar" "Avesta"nın ən qədim hissəsidir.

"Visprat" (bütün tanrılar) müxtəlif allahlara pərəstişlə bağlıdır və 24 fəsildən ibarətdir. "Avesta"nın bu hissəsi əslində kahinlik kitabıdır.

"Videvdat" (divlər əleyhinə qanunlar) icazə və qadağanlardan bəhs edir və 22 fəsildən ibarətdir. Burada dindar zərdüştilərə nəyə icazə verilməsindən və nəyin qadağan olunmasından bəhs edilir. Onun " Coğrafi poema" adlanan birinci farqardında lap qədimlərə gedib çıxan süjetlər az deyildir. Burada Ahura Mazdanın müxtəlif ölkələri yaratmasından danışılır. Bu farqardda on altı ölkənin adı çəkilir. Onların sırasında həm gerçək, həm də mifik ölkələr vardır. "Coğrafi poema" "Aveta"nın coğrafi arealının geniş olduğunu bir daha təsdiqləyir.

Beləliklə, e.ə. IV əsrin son rübündə əsası Cənubi Azərbaycanda qoyulmuş Atropatena dövləti Azərbaycan qədim tarixində mühüm bir mərhələdir. Azərbaycan ərazisində özündən əvvəlki dövlətlərin siyasi, iqtisadi və mədəni əlaqələrini bərpa edən Atropatenanın meydana çıxması qədim Azərbaycanın dövlətçilik tarixində irəliyə doğru yeni və mühüm bir addım idi.

İlkin yazılı qaynaqların məlumatları və arxeoloji qazıntıların məlumatları Atropatenaın inkişaf etmiş kənd təsərrüfatına, sənət və ticarət mərkəzləri olan şəhərlərə, yüksək mədəni səviyyəyə malik müstəqil bir dövlət olduğunu söyləməyə tam şəkildə əsas verir.